# Azərbaycanda silah istehsalının tarixi

*(əvvəli ötən saylarımızda)*

**Soyuq silah növlərindən olan xəncər feodal sinfinin kişi geyiminin vacib elementlərindən biri hesab edilirdi. Xəncərlər tiyəsinin formasına görə 2 növə bölünürdü: Tiyəsinin hər iki tərəfi iti, enli və düz olub uca doğru daralaraq sivriləşən xəncər növlərinə Bakıda aparılan arxeoloji qazıntılarda rast gəlinmişdir. Digər növ xəncər isə bir ağızlı olması ilə fərqlənirdi.**

**Universal bir alət olan bıçaqlardan da soyuq silah kimi döyüşlərdə geniş istifadə olunurdu. Bakıdan tapılan bıçaqların bir qrupu xəncəri xatırladır, təsərrüfat və məişət bıçaqlarından fərqlənirdi. Bıçaqların bir tərəfi iti, digəri isə nisbətən qalın olurdu. Bıçaqların sapı ağac və ya sümükdən hazırlanırdı.**



Tədqiqatlar göstərir ki, xəncər tipli hərbi bıçaqların mənşəyi çox qədimdir. Mingəçevirdən bu növ xeyli bıçaq tapılmışdır. Bəzi mənbələrdə həmin bıçaqların xəncər rolu oynadığı qeyd edilərək xəncərin belə bıçaqların sonrakı inkişafı ilə əlaqədar yarandığı fikri də irəli sürülür.

Azərbaycan ərazisində aparılan arxeoloji qazıntılar onu deməyə əsas verir ki, döyüşlərdə toppuzdan da geniş istifadə olunmuşdur. Belə ki, 1964-cü ildə Bakıda Qız qalası yaxınlığında baş daşlardan toppuz rəsmləri aşkar edilmişdir. Abşeron əhəng daşından hazırlanmış məzar daşları XIV-XVII əsrlərə aid edilir. Məzar daşlarından birinir üzərində yəhərli at, qılınc, xəncə və toppuz, digərində isə ox, kaman, qılınc və qalxan təsvir edilmişdir. Üzərində at və çoxlu silah şəkli olan bu qəbrlərdə dəfn edilən döyüşçülərdən biri atlı, digəri isə piyada döyüşçüyə aiddir. Silahların içərisində toppuzun olması isə orta əsrlərdə Bakıda bu silah növündən də istifadə edildiyini aydın göstərir. Toppuzun yalnız atlı döyüşçüyə aid olan baş daşında təsviri isə onun yalnız süvari və ya başçıların gəzdirə biləsinə işarədir.

Respublikamızın ərazisində geniş yayılmış sahələrdən biri də odlu silah istehsalı idi. Azərbaycanın ənənəvi odlu silahları atəş saçma üsuluna görə "çaxmaqlı" və "pistonlu" olmaqla iki növdə hazırlanırdı.

Odlu silah nümunələrinə tüfənglər, müxtəlif tipli tapançalar, kiçik topların istehsalı daxil idi. Odlu silah istehsalının özü də lülə, çaxmaq, qundaq istehsalı kimi sahələrə ayrılırdı.

Odlu silah istehsalı işində təzə dəmirdən daha artıq köhnə dəmirdən, xüsusilə naldan istifadə edilirdi. Gəncə və Lahıc silahsazları köhnə dəmir ilə polad qarışığından istifadə etməyə üstünlük verirdilər.

Azərbaycanda odlu silah istehsalı Avropadan fərqli olaraq bir sıra xüsusiyyətlərinə görə fərqlənirdi. Məs., tüfənglərin lülələri nisbətən uzun və cövhərli, xaricdən əksər hallarda tilli (tin-tin), daxildən xırsız (yivsiz) olurdu. Yivli silahlara nadir hallarda təsadüf edilirdi. Tüfənglərin qundaqları oval formada olub, daha çox İran silahlarının qundağına oxşayırdı.

Tədqiqatlardan məlum olur ki, Qafqazda hazırlanan odlu silahlar texniki cəhətdən Türkiyə silahları səviyyəsində idi. Onların əsas fərqi milli naxışların müxtəlifliyindən ibarət idi.



Yazılı mənbələrin məlumatına əsasən, XIX əsrin əvvəllərində odlu silah istehsalı Gəncə, Nuxa, Cəbrayıl qəzalarında, Şamaxı, Göyçay və Qubada da nisbətən geniş inkişaf etmişdi.

Lahıc ustalarının hazırladıqları silahlar bütün Şirvan, Nuxa, Quba, Qarabağ və Bakı əyalətlərinə, Dağıstan və İranın bəzi yerlərinə göndərilirdi. Lahıc ustaları bütün işi əl ilə görürdülər. Ona görə də iş çətin olur, çox gec yerinə yetirilirdi. Bəzi ustalar odlu silah hazırlanması sahəsində böyük şöhrət qazanmışdılar. Belə ustalardan biri Əbdülrəhim bir ay ərzində bir tüfəng və iki tapançadan artıq hazırlaya bilmirdi. Lakin onun hazırladığı lülələr alıcılar tərəfindən sevilir, qundağı və başqa ləvazimatı olmadan belə böyük həvəslə alınırdı. Əbdülrəhimin hazırladığı silah bazarda 5-10 çervon arası satılırdı.

Başqa ustaların hazırladıqları lülələr isə 3-8 çervon arası qiymətə satılırdı.

Tədqiqatlara əsasən, Şamaxı qəzasına silah istehsalı sahəsində şöhrət qazandıran da məhz Lahıc və onun ətrafında yerləşən kəndlər olmuşdur. Bu Şamaxı şəhərinin gerbində də öz əksini tapmışdır. Milli Azərbaycan Tarix Muzeyinin fondunda qorunan bu gerbin üzərində başqa təsvirlərlə yanaşı, çarpazlaşdırılmış iki tüfəng şəkli də verilmişdir.

XIX əsrin əvvəllərinə Lahıc ustaları silah istehsalı məqsədi ilə dəmiri Bakı qalasından alırdılar. Bakıdan Lahıcа aparmaq üçün 10 pud dəmirə 3 ma‑at gümüş pul ödənilirdi. Dəmiri lazımı yerinə bakılılar özləri gətirib çıxartdıqda isə puduna 2 manat gümüş pul alırdılar.

Mənbələrdə XIX əsrdə Azərbaycanda mövcud olan silahsaz emalatxanalarının və burada çalışan ustaların sayı haqqında qismən də olsa məlumatlar vardır. Məsələn, XIX əsrin 30-cu illərində Şamaxıda 26 nəfər silahsazın (onlardan 5-i təbərzin, 9-u nəfəri xəncər, 12-u qundaq, 1-i isə silah qundağına qızıldan naxış salan usta idi) fəaliyyət göstərdiyi haqqında məlumat verilmişdir. Əsrin ortalarına doğru isə Şamaxı şəhərində silah ustalarının sayı 66 nəfərə çatmışdır.

Yadelli işğalına məruz qalmasına baxmayaraq, Azərbaycanın digər şəhərlərində də silahsazlıq sənəti davam etdirilirdi. Məsələn, 1848-ci ildə təkcə Şəkidə 13 nəfər usta, Şuşa, Naxçıvan, Ordubad şəhərlərinin hər birində 2-3 silah ustası, 7 dəmirçi dükanı, Lahıcda 8 silah dükanı, Buduq mahalının (indiki Quba rayonu) Yərfi və başqa kəndlərində isə tüfəng, tapança, qılınc və başqa silahlar hazırlayan dükanlar fəaliyyət göstərirdilər.

1865-ci illərdə isə Gəncədə 35 dəmirçi, 23 tüfəngsaz, Naxçıvanda 198 dəmirçi, 8 tüfəngsaz, Ordubadda isə 28 dəmirçi və 3 tüfəngsaz ustaları fəaliyyət göstərirdilər.

Tədqiqatlardan məlum olur ki, XIX əsrin sonlarında Azərbaycanda silah istehsalı kəskin surətdə azalmışdır. Belə ki, həmin əsrin 80-ci illərində Şamaxıda 2 nəfər, Bakıda 3-4 nəfər, Lənkəranda 2 nəfər, Gəncədə 8 nəfər, Şuşada 1 nəfər, Şəkidə 11 nəfər, 1885-1886-cı illərdə Ərəş qəzasının Ağdaş kəndində isə 3-4 nəfər silah istehsalı ilə məşğul olurdu.

XIX əsrin sonlarında Qafqazda istehsal olunan silahların qiyməti fərqli bölgələrdə müxtəlif idi. Xəncər 1 rubldan 5 rubladək, qılınc 5 rubldan 20 rubladək, tüfəng isə 5 rubldan 10 rubladək qiymətə satılırdı. Silahsaz çilingərin orta illik əmək haqqı isə 100-225 rubl arası hesab olunurdu.

Lakin mövcud statistik materiallar XIX əsrin ikinci yarısında Şimali Azərbaycanda odlu silah istehsalının tənəzzülə uğradığını və XIX əsrdə Avropa silahsazlarının əldə etdikləri müvəffəqiyyətlərdən geri qaldıqlarını göstərir. Bəzi tədqiqatçılar bunun əsas səbəblərindən biri kimi yerli ustaların öz texnoloji sirlərini məxvi saxladıqlarını qeyd edirlər. Bunun digər əsas səbəblərindən biri isə Tula və Belçikadan daha ucuz başa gələn silahların idxalı və Qafqaz müharibəsindən sonra burada odlu silah istehsalının qadağan edilməsi idi.

Beləliklə, Azərbaycanda silahsazlıq sənəti yalnız peşəkarlıq, estetik incəlik və texnoloji inkişafı deyil, həm də milli-identiteti, hərb tariximizi və gənc nəslə ötürülən vətənpərvərlik ruhunu da özündə əks etdirir. Yuxarıda Azərabaycan ərazisində qədim dövrdən XIX əsrin sonlarınadək döyüşlərdə istifadə olunan silah nümunələri Azərbaycan döyüşçüsünün peşəkarlığını, hərbi bacarığını nümayiş etdirməklə yanaşı, ölkəmizdə metalişləmənin mühüm istiqamətlərindən olan silahsazlıq sənətinin nə qədər qədim olduğunu, bu sənətin zamanla keçdiyi mürəkkəb inkişaf yolunu izləmək imkanı verir. Həmçinin silahların tədqiqi Azərbaycanda metalişləmənin ayrı-ayrı sahələrində tətbiq olunan texnika və texnologiyanı müəyyənləşdirməyə, sənətkarlığın inkişaf dinamikasını, silahsazlıq sənətində daxili ixtisaslaşmanın səviyyəsi haqqında fikir söyləmək üçün böyük əhəmiyyətə malikdir. Haqqında məlumat verilən bu silah nümunələri bizə təkcə tarixi deyil, həm də kimliyimiz barədə danışır. Onların naxışları, forma və funksiyaları bu sənətin nə qədər dərin və zəngin olduğunu göstərir. Babalarımızdan bizə miras qalan bu maddi mədəniyyət abidələri hərb tariximizin şücaət dolu səhifələrinin gənc nəslə çatdırılması və onların milli-vətənpərvərlik ruhunda tərbiyə olunmasında xüsusi rola malikdir.



**_Gülşən HÜSEYNOVA_**
**_Azərbaycan Hərb Tarixi Muzeyinin əməkdaşı,_**
**_Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin müəllimi_**